# QƏDİM MİFİN YADDAŞ DİLİ

## *Mifoloq Seyfəddin Rzasoyun ad gününə təbrik*

Əvvəlcə, kimdir Seyfəddin Rzasoy? - sualına cavab verək. Mənən zəngin bəşəri-mənəvi irsə sadiq bir insan, yetkin bir şəxsiyyət cavabını vermək üçün bizə heç bir arqument sədd çəkə bilməz. Amma hər halda onun insani keyfiyyətləri haqqında bir az aşağıda daha geniş və əhatəli danışmaq imkanımız olacaq. O, AMEA-nın Folklor İnstitutunda Mifologiya şöbəsinin müdiridir. Filologiya elmləri doktoru, professordur. Mifologiya, ritualşünaslıq və ədəbiyyatşünaslıq sahələri ilə bağlı 15 kitabın, 250-dən çox məqalənin müəllifidir. Bəzi kitabların adını çəkmək istərdik: "Nizami poeziyası: mif-tarix konteksti (Bakı-2003), "Yaddaş və şəxsiyyət" (Bakı-2004), "Ocuz mifinin paradiqmaları" (Bakı-2004), "Ocuz mifi və Oğuznamə eposu" (Bakı-2006), "Ocuz mifologiyası" (Bakı-2009), "Əbülqazi "Oğuznamə"sində mif və ritual" (Bakı-2013), "Azərbaycan dastanlarında şaman qəhrəman arxetipi" (Bakı-2015)... Bəli, daha bir neçə kitabın adını da yazmaq olar. Ancaq Seyfəddin Rzasoyun alim hünərinin bəhrəsi olan, əgər belə demək mümkünsə, indiyə qədərki kitablarından sonuncusunun adını xüsusilə çəkməliyik: Bu "Kitabi-Türkman-Lisani" Oğuznaməsinin transmediatv strukturu və ritual mifoloji semantikası" kitabıdır. Bu əsəri ilə Seyfəddin Rzasoy Qorqudşünaslığın mərkəzində olduğunu və ən başlıcası, tutarlı və əsaslı söz sahibi olduğunu sübut etmişdir. Özü də bu sübutları Qorqudşünaslığın tarixi tədqiqatlarına söykənərək bütün mənəvi gücü ilə diktə edir. Bu barədə yəqin ki, gələcəkdə ayrıca söhbət açarıq. İndi onun ad gününü təbrik etmək üçün səmimi doğmalıq duyğuları ilə yanaşmanı daha üstün tuturuq... Beləliklə, oxucular üçün yazaq, qoy özü də dinləsin (oxusun).



Əzizim Seyfəddin Rzasoy, dünən sənin ad günün olub. İndi ad günlərini diqqətdə saxlamaq dəbdədir. Ancaq mənə elə gəlir ki, ad günlərinin diqqətdə saxlanılması heç də pis hal deyil. Bu nə qədər dəb xarekteri alsa da, hər halda, insanların bir-birinə xoş ünsiyyətlə bağlanması üçün xüsusi əhəmiyyət kəsb edir. Ancaq Seyfəddin Rzasoy kimi alimlərin ad günü münasibəti ilə təbrik olunması cəmiyyətin elmə, ziyalılığa göstərdiyi diqqət kimi qiymətləndirilməlidir. Azərbaycan elmində ədəbiyyatşünaslıq, folklorşünaslıq və mifolagiya ilə bağlı tədqiqatlarda sizin - Seyfəddin Rzasoy imzasının ayrıca yeri var. Kimsəyə sirr deyil ki , mənəviyyat tariximizin mifoloji qatlarına nüfuz etmək hər kəsin işi deyil. Amma Seyfəddin Rzasoy mifik sirlər aləminin 40-cı qapısına qədər gedib catıb. Bu gün o, elminin kamillik zirvəsindədir. Və 40-cı otağın sirlərini açmaqdadır. Bir ziyalı olaraq mənəvi kamilliyi ilə cəmiyyətimizdə hörmət mərtəbəsindədir. Məndə belə bir inam var ki, dünyagörüşümüzdən irəli gələn müəyyən məsələlərə fərqli münasibət bizi ayıra bilməz.

Əzizim Seyfəddin Rzasoy, mənim 65 illik yubiley tədbirimi yazıçılar birliyinin Natəvan klubunda siz apardınız. Mən sizə güvənirdim. Çünki, son 20 illik zəngin yaradıcılıq yolunuz mənə tanış idi. Bildiyim həqiqət idi... Axı siz həm də dostlar arasında səmimiyyətinizlə seçilirsiniz... Sizin qəlb genişliyi və mənəvi zənginliklə böyük auditoriya qarşısında məntiqi ardıcıllıqla və orijinal çıxışlarınızı heyranlıqla dinləyirdik... Sözümə verdiyiniz qiymət qəlbimdə həddsiz məmnunluq duyğuları oyadırdı.

Əzizim Seyfəddin Rzasoy ...Siz təbiət etibarı ilə azad ruhlu şəxsiyyət, dərin zəkalı bir alim kimi tanınırsınız... Artıq böyük zəhmətlə ərsəyə gətiridiyiniz əsərlərinizlə əbədiyyət haqqı qazanmısınız...

Sizin simanızda görkəmli ziyalı ilə dostluğumdan qürur duyuram. Bu ziddiyyətli dünyamızın dərdlərindən, ağrıacılarından sənə xətər toxunmasın.

...Əzizim, Seyfəddin Rzasoy, qədim mifin yaddaş dili bu gün o miflərin dərin qatlarına enə bilən alimlərin dilidir. Qədim miflərin yaddaş dili, həm də sənin dilindir. Bu mənada, sən xalqımızın az-az yaranan və nadir dil sahibi olan simalarından birisən.

Sənin ad günün mənim üçün də bayramdır. Səni təbrik edirəm, əziz qardaşım...

***Əli Rza XƏLƏFLİ***
***03.08.2021***

Kredo.- 2021.- 4 avqust.- S.1.